A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
S Ə R Ə N C A M L A Y İ H Ə S İ

№ 50 «31» Mart 2020-ci il

**Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən mayın 31-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasının təmin edilməsi tədbirləri haqqında**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası qanununa, "Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən mayın 31-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2020-ci il tarixli sərəncamının icrasını təmin etmək məqsədilə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.4-cü, 3.15.5-ci bəndlərinin tələblərinə əsasən

q ə r a r a a l ı r a m:

1. 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985–2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprel ayının 1-dən mayın 31-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasını təmin etmək məqsədilə həqiqi hərbi xidmətə çağırışın keçirilməsinə rəhbərlik və nəzarət üzrə yaradılmış Çağırış Komissiyasının tərkibi aşağıdakı kimi təsdiq edilsin:

| | | |
|---|---|---|
| N.Həsənov | – | Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarə rəisi, polkovnik-leytenant, komissiyanın sədri |
| İ. Süleymanov | – | Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri, komissiyanın sədr müavini |
| V.Axundov | – | Rayon Polis İdarəsinin rəis müavini, komissiyanın üzvü |
| N.Tarverdiyev | – | Rayon Gənclər və İdman İdarəsinin rəisi, komissiyanın üzvü |
| İ.Hüseynova | – | Hərbi həkim komissiyasının sədri, terapevt, komissiyanın üzvü |
| Ə.Haqverdiyev | – | Cərrah, komissiyanın üzvü |

CS CamScanner ilə tarandı

| | | |
|---|---|---|
| T.Paşayev | – | Nevropatoloq, komissiyanın üzvü |
| M.Turabov | – | Dermatovenerolog, komissiyanın üzvü |
| R.Əliyev | – | Otorinolarinqoloq, komissiyanın üzvü |
| O.Fərəcli | – | Psixiatr, komissiyanın üzvü |
| S.Əliyeva | – | Oftalmoloq, komissiyanın üzvü |
| N.Abbaszadə | – | Stomatoloq, komissiyanın üzvü |
| S.Xanəliyeva | – | Köməkçi tibb bacısı, komissiyanın üzvü |
| X.Salahova | – | Çağırış komissiyasının katibi |

3. Rayon Çağırış Komissiyasına tapşırılsın:

3.1 Çağırış yaşlı vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılmasını, tibbi şəhadətləndirilməsini və onların hərbi hissələrə göndərilməsini təmin etsin;

3.2 Müddətli həqiqi hərbi xidmətə yararlığı yoxlanılmaqdan ötrü vətəndaşların rayon çağırış məntəqəsinə mütəşəkkil gəlişini təmin etsin;

3.3 Rayon çağırış məntəqəsini lazımi avadanlıqlarla təchiz edilməsini, lazımi sayda həkim, texniki işçi və məsul şəxslərin bu mühüm tədbirlərdə iştirakını təmin etsin;

3.4 Çağırışçıların müddətli həqiqi hərbi xidmətə təntənəli suratdə yola salınmasını təşkil etsin;

3.5 Müddətli həqiqi hərbi xidmətə çağırılmış vətəndaşların ailələrinə qayğı göstərilməsini və bu ailələrin güzəştləri haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üçün lazımi işlər həyata keçirilsin;

4. Binəqədi Rayon Polis İdarəsinə, İdarənin 4-cü, 5-ci, 6-cı, 7-ci, 40-cı və 43-cü Polis Bölmələrinə tapşırılsın ki, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışını həyata keçirməkdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinə müvafiq köməkliklər göstərsinlər;

4.1 Müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınan şəxslərin axtarışı həyata keçirilsin, çağırış məntəqəsinə ictimai asayişin təmin olunması üçün lazımi sayda polis əməkdaşları ayrılsın;

5. Bakı şəhəri 6 saylı BŞX-nın baş həkimi Bəyalı Məmmədova tapşırılsın:

5.1 Çağırış komissiyasının tərkibinə salınmış həkim mütəxəssislərin və orta tibb işçilərinin komissiyanın işində iştirak etmələrini təmin etsin;

5.2 Vətəndaşların tibbi şəhadətləndirilməsinin təmin edilməsi üçün rayon çağırış məntəqəsini zəruri olan alətlər, tibbi və təsərrüfat əmlakı ilə təchiz etsin;

CS CamScanner ilə skan edildi

.ayon çağırış komissiyasının göndərişinə əsasən çağırışçıların flüoroqrafiya, labarotor, .Q və USM müayinələrinin aparılmasını təmin etsin.

6. Rayon çağırış məntəqəsinin qəsəbə nümayəndəlikləri və başqa təşkilatlarla telefon rabitəsinin etibarlı və fasiləsiz işləməsinin təmin olunması Xətai və Yasamal Telefon Qovşaqlarına həvalə edilsin.

7. Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinə tapşırılsın ki, rayon çağırış məntəqəsinin ərazisində lazımi sanitar qaydalarının qorunmasını təmin etsin.

8. Rayon ərazisində yerləşən idarə müəssisə və təşkilatların rəhbərlərinə tapşırılsın ki, təsdiq edilmiş cədvələ əsasən rayon çağırış komissiyasının işlədiyi müddət ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinə təqdim etdiyi tələbnamələrin əsasında rayon çağırış məntəqəsinə lazım olan sayda avtobus və digər nəqliyyat vasitələri ilə təmin etsinlər.

9. Rayon Gənclər və İdman İdarəsinin rəisi N.Tarverdiyevə tapşırılsın ki, çağırışçılar arasında vətənpərvərlik hisslərinin aşılanmasında, müstəqil Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün qorunması işində lazımi izahat işlərinin aparılmasını təşkil etsin.

10. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Elxan Allahverdiyev
№ 30

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

SƏNƏDLƏR ÜÇÜN

**Sabir Əliyev**

CamScanner ile tarandı